Xalq qəzeti



25 dekabr / 2020

# Qarabağın azad edilməsi milli musiqimizə yeni töhfələr verəcək

Azərbaycan hər dəfə düşmənin təxribatlarına layiqli cavab versə də, bu, ona dərs olmurdu. Lakin səbir kasası daşan Azərbaycan indiki Vətən savaşında Ermənistana biabırçı məğlubiyyət yaşatdı. Əslində, işğalçı belə bir acı nəticəni gözləmirdi. Çünki Ermənistan rəhbərliyi ötən 30 il ərzində güclü ordu mifini yaradaraq əhalini aldadırdı. Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə bu mifi darmadağın etdi və Ermənistanın qoruyub saxladığı status-kvo və təmas xəttini tamamilə dağıtdı. Biz torpaqlarımızı azad etdik. Bu, analoqu olmayan tarixi qələbə idi.

Qarabağın işğaldan azad edilməsi həm də mədəniyyətimizin, incəsənətimizin inkişafı üçün yeni dövrün başlanğıcını qoydu.

Mən musiqiçiyəm və Azərbaycan Milli Konservatoriyası nəzdində fəaliyyət göstərən Musiqi Kollecinə rəhbərlik edirəm. Kollecimizin tələbələri də bu şanlı qələbənin iştirakçıları olmuşlar. Onların bəziləri könüllü olaraq cəbhəyə yollanmış və böyük qəhrəmanlıqlar göstərmişlər. Müharibədə igidlik göstərərək şəhid olmuş tələbə və məzunlarımızın adlarını diqqətə çatdırmaq istəyirəm: İsizadə Emil Azim oğlu ("Xalq çalğı alətləri" (tar), II kurs tələbəsi), İbrahimov Alim Səhrab oğlu ("Xalq çalğı alətləri" (qarmon), 2014-cü ilin məzunu ), Məmmədov Zəbiyulla Şahin oğlu ("Xalq çalğı alətləri" (tar), 2019-cu ilin məzunu), Mahmudov Tamerlan Fuad oğlu ("İnstrumental ifaçılıq" (tuba), 2020-ci ilin məzunu). Onlar möhtərəm



**Çoxdan gözlədiyimiz gün gəlib çatdı. Şanlı Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində 30 il işğal altında qalan Qarabağı azad etdi. Biz qələbə çaldıq, düşməni işğal etdiyi torpaqlarımızdan qovub çıxardıq. Mən deyərdim ki, bu qələbənin mənbəyi xalq ilə iqtidarın möhkəm birliyindədir. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz müharibənin gedişində möhtəşəm qələbələr qazanaraq dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. Silahlı Qüvvələrimiz döyüş meydanında Ermənistanın "güclü, məğlubedilməz ordu" mifini darmadağın etdi.**

Prezidentimizin sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilmişlər. Allahdan bütün şəhidlərimizə rəhmət diləyirəm.

Hərbi qulluğa çağırılmış tələbələrimizdən Abdullazadə Elnur Elşən oğlu ("Xalq çalğı alətləri" (tar), IV kurs), Muradov Əzizbəy Etibar oğlu ("Xalq çalğı alətləri" (qarmon), III kurs), Musayev Musa Rasim oğlu ("Xanəndəlik", IV kurs), Zeynalov Toğrul Bulud oğlu ("Xanəndəlik", III kurs), Bədəlov Azay Tahir oğlu ("Xanəndəlik", III kurs), Məsimov Vəli Allahverdi oğlu ("Xanəndəlik", IV kurs), Əliyev Cahangir Səxavət oğlu ("Xanəndəlik" , III kurs) indi də hərbi xidməti davam etdirirlər.

Tələbəmiz Əzizbəy Muradov Qarabağın tacı olan, əsgərlərimiz tərəfindən azad olunan Şuşa şəhərində tapdığı qarmon alətində "Qarabağ şikəstəsi" ifa etmişdir. Həmin videoçarx sosial şəbəkələrdə yayılmış, marağa səbəb olmuş və insanları duyğulandırmışdır. Eyni zamanda, "Xalq çalğı alətləri" (tar) ixtisası üzrə müəllimimiz İdris Hüseynov da səfərbərliyə cəlb edilmiş və hazırda Qarabağda xidmətdədir.

Qarabağın işğaldan azad edilməsi ilə təkcə torpaqlarımız deyil, milli-mənəvi dəyərlərimiz də öz sahibinə qaytarıldı. Xilaskar Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuz Şuşanı işğaldan azad etməklə xalqımıza sonsuz sevinc və qürur hissi yaşatdı. Cənab Prezident Şuşanın işğaldan azad edilməsi ilə bağlı xalqa müraciətində demişdir: "Şuşa Azərbaycan üçün milli qürurdur, milli mənlikdir, mədəniyyətdir, incəsənətdir, tarixdir". Rəşadətli ordumuzun Şuşaya bayraq sancması və bu xəbərin müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən xalqa çatdırılması 28 ildən sonra milli qürurumuzun, mənliyimizin, mədəniyyətimizin, incəsənətimizin, tariximizin də azad edilməsini, hətta yeni yüksəliş mərhələsinə daxil olmasını sübut etdi. Şuşanın işğaldan azad olunması Qarabağın döyünən ürəyinin xilas edilməsi demək idi.

Möhtərəm Prezident Azərbaycanın tarixi şəhəri, bütün Qafqazın mədəniyyət mərkəzi hesab edilən, öz hərbi-strateji önəmi ilə yanaşı, həm də mənəvi əhəmiyyəti olan Şuşanın şanlı ordumuz tərəfindən azad edildiyini böyük fəxarətlə xalqa çatdırdı. Şuşanın azadlığı ordumuzun gücünün, xalqımızın birliyinin, Ali Baş Komandanımızın sərkərdəlik qabiliyyətinin təzahürüdür.

Şuşa – Mir Möhsün Nəvvabın, Xarrat Qulunun, Hacı Hüsünün, Sadıqcanın, Məşədi İsinin, Əbdülbağı Zülalovun, Cabbar Qaryağdıoğlunun, Keçəçi oğlu Məmmədin, Məşədi Məmməd Fərzəliyevin, İslam Abdullayevin, Seyid Şuşinskinin, Bülbülün, Zülfi Adıgözəlovun, Xan Şuşinskinin, Məşədi Cəmil Əmirovun, Qurban Primovun, bəstəkarlardan Üzeyir Hacıbəyovun, Zülfüqar Hacıbəyovun, Fikrət Əmirovun, Niyazinin, Əfrasiyab Bədəlbəylinin, Soltan Hacıbəyovun, Əşrəf Abbasovun, Süleyman Ələsgərovun, müğənni Rəşid Behbudovun vətənidir. "Şuşa musiqiçiləri" Azərbaycan musiqisinin tarixini yaradırdılar və onu yalnız Vətəndə deyil, digər Şərq ölkələrində də təqdim edirdilər. Bu gün Şuşanın şöhrətini özünə qaytarmaq üçün möhtərəm Prezidentimiz bərpa və yenidənqurma işlərinə start verildiyini bildirib.

Şuşa şəhər Niyazi adına Uşaq İncəsənət Məktəbi yerlə-yeksan edilib. Azərbaycanda ilk musiqi məktəblərindən biri də 1932-ci ildə Şuşada tanınmış vokal ustası, böyük sənətkar Bülbülün təşəbbüsü ilə açılıb. Bu musiqi məktəbinin məzunları sırasında tanınmış sənətkarlar – Süleyman Ələsgərov, Əşrəf Abbasov, Rauf Əliyev, Kamal Məmmədov, Kamal Abbasov və digər musiqi xadimlərimiz olub.

Şuşadakı Mədəni-Maarif Kollecinin binası istifadəyə yararsız hala salınmışdır. Bu məktəblər neçə illərdir ki, Şuşadan uzaqlarda fəaliyyət göstərir və məcburi köçkün həyatı yaşayırdılar. Onlar da yaxın vaxtlarda öz doğma ünvanlarına dönəcəklər. Təkcə Şuşa deyil, elə Ağdam, Füzuli də milli musiqimizin inkişaf tapdığı bölgələrimiz idi. Bu torpaqların işğaldan azad olunması milli musiqimizin inkişafında əhəmiyyətli rol oynayacağına əminəm.

Biz musiqiçilər möhtərəm Prezidentimizlə fəxr edirik . İnanırıq ki, dövlət başçımızın rəhbərliyi ilə bölgədə yeni musiqi məktəbləri, konsert salonları açılacaq, Qarabağın musiqi şöhrətini özünə qaytarmaq mümkün olacaq. Qarabağ yenə də Azərbaycanın musiqi beşiyinə çevriləcək.

***Nazim KAZIMOV,***
***Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin direktoru, Əməkdar incəsənət xadimi, professor***

